# Ali məktəb kitabxanaları və kadr problemi

Ali məktəblərdə təhsilin müasir tələblərə uyğun həyata keçirilməsində ali məktəb kitabxanalarının rolu danılmazdı. Ali məktəb kitabxanaları ali məktəbin problem və vəzifələri ilə əlaqədar fəaliyyət göstərir və onun bir "orqanı" kimi ali məktəbin tədris prosesini, elmi-tədqiqat işlərini informasiya (ədəbiyyat) ilə təmin etməklə yanaşı, həm də tələbələrin təlim-tərbiyə işində də yaxından iştirak edir. Dünyada müxtəlif tipli akademik kitabxanaların elmi-informasiya fəaliyyətinin tədqiqatı aparılıb və aydın olub ki, ali məktəb kitabxanalarının bu sahədə gördüyü işlər daha təqdirəlayiqdir. Belə ki, ali məktəb kitabxanalarında mövzu müxtəlifliyi, ideya dolğunluğu xeyli yüksəkdir. Aparılan araşdırmalara görə, dünyada olan 13200 təşkilatın məlumat bazasından ən çox istifadə edən ali məktəb kitabxanaları olub ki, bu da kitabxana işçiləri tərəfindən həyata keçirilib. Tədqiqatçıların gəldikləri qənaətə görə, dünya informasiya şəbəkəsində 4,49 milyard qeydiyyatda olmayan veb səhifə informasiya resursları var. Bundan əlavə, qeydiyyatda olan Don Brad - Street, 50 milyon informasiya mənbəyini, İnformation Assess 1,5 milyon dövri mətbuatı - EPSCO informasiya mənbəyi vasitəsilə təqdim edir. Bu informasiya mənbələri informasiyanı işləyir, analiz edir və müxtəlif kateqoriyalı oxuculara çatdırır.

Prezident İlham Əliyev Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında fərmanında vahid kitabxana sisteminin yaradılması haqqında göstəriş verib. Ali məktəb kitabxanaları da bu fərmandan irəli gələn vəzifələri öz fəaliyyətində tətbiq etməlidir.

Ali məktəb kitabxanalarında informasiya xidmətini yüksək səviyyədə təşkil etmək üçün bu elm ocaqları elmi biliklərin təbliğinin ənənəvi sistemi çərçivəsində öz fəaliyyətində yeni istiqamət tapmalıdır ki, bütün informasiya mərkəzləri ilə rəqabətdə geri qalmasın. Bu rəqabətdə qalib gəlmək üçün kitabxana işçiləri kitabxana-informasiya texnologiyalarına dərindən yiyələnməlidir. Köhnə kadrlar öz işini nə qədər dərindən bilsələr də, müasir texnologiyalarla işləmək onlara çətindir. Onların yaşlarının çox olması səbəbindən bu sahədə yenidən təkmilləşmək üçün uzun zaman tələb olunur.

Əvvəllər ali məktəblərdə informasiya xidməti soraq-biblioqrafiya xidməti adı altında lokal xarakter daşıyırdı və "soraq-biblioqrafiya aparatı" - yəni kitabxananın kataloq və kartotekaları, soraq-məlumat fondu çərçivəsində həyata keçirilirdi. Bu, nisbətən asan yol idi. O vaxtlar BDU-nun Elmi kitabxanası informasiya günləri keçirməyə başladı. İnformasiya günlərində kitabxanaya yeni daxil olan kitablar mövzular üzrə seçilir və yalnız bir gün ərzində müəyyən vaxtlarda sərgi təşkil edilirdi. Bu da çox effekt vermirdi, çünki müəllimlər bu prosesdə çox zəif iştirak edirdilər.

Hazırda informasiya texnologiyalarının sürətli inkişafı və bu texnologiyaların kitabxanalarda geniş tətbiqi ali məktəb kitabxanaları qarşısında yeni vəzifələr qoyur. Bu vəzifələrin ən əsası kitabxana peşəsi seçən gəncləri bu istiqamətdə hazırlamaqdır. Gənclərin kitabxana - informasiya texnologiyalarının dərindən mənimsəməsi üçün yüksəksəviyyəli tədris bazası olmalıdır. Kitabxanaçı kadrların hazırlanılmasında bu sahəyə dövlət tərəfindən xüsusi diqqət yetirilməsi vacibdir. Ali məktəb kitabxanaları dünyada gedən inkişafda rəqabətə tab gətirmək üçün öz oxucularına xidmətə innovativ yanaşmalıdır. Böyük miqyasda dünya informasiya selindən baş çıxarmaq, optimal axtarış mənbələri qarşısında problemlə üzləşməmək üçün yüksək hazırlığa malik olmalıdır. İndiki zamanda informasiya xidmətini lazımi səviyyədə yerinə yetirmək üçün informasiya axınını idarə edə biləcək kitabxanaçılara böyük ehtiyac var.

Məlumdur ki, müasir dövrdə lazımi operativ məlumat ilk olaraq elektron formada olur. Bu elektron məlumatlar təbii ki, sənədlərin əsli deyil, surətləridir, hətta bəzən surətin-surəti olur. Ona görə kitabxana işçisi informasiya axınından baş çıxarmalı, ən yeni optimal, ən qiymətli materialları seçib təbliğ etməyi, internet səhifələrində olan məlumatları keyfiyyətinə və əhəmiyyətinə görə qiymətləndirməyi bacarmalıdır. Bu sahədə kitabxanaçı kadrların hazırlanması da mühüm məsələ kimi ortaya çıxır. Ali məktəblərdə təhsilin keyfiyyətini yüksəltmək üçün kitabxana kadrlarının rəqəmsal biliyinin yüksək olması xüsusilə vacibdir. Universitet elmin inkişafının xarakterinə uyğun normativ məlumatları seçib kitabxananın saytında yerləşdirməyi, kitabxana resurslarının inkişafına diqqət yetirməyi, tələbə və müəllimlər üçün vacib informasiya sistemi yaratmağı həyata keçirməklə oxucular üçün kitabxananın saytına açıq giriş yaratmağı bacarmalıdır.

Dünya mətbuatını və internet saytlarını izlədikdə bəzən kitabxana və kitabxana kadrları haqqında qeyri-obyektiv yazılara da rast gəlinir. Kitabxanaçıların vəzifəsi ədəbiyyat toplamaq, onları mühafizə etmək və girişini təşkil etməkdir kimi səhv fikirləri ortaya atırlar. Bu, çox yanlış yanaşmadır, belə çıxır ki, bir neçə ildən sonra kitabxanaya və kitabxana kadrlarına ehtiyac qalmayacaq, hər şey informasiya texnologiyaları vasitəsilə əldə ediləcək. Əslində kitabxana və kitabxana işçiləri aşağıdakı funksiyaları yerinə yetirir: kitabxananı komplektləşdirir, ədəbiyyatı işləyir, uzun müddət mühafizə edir, oxucu sorğularına görə təqdim edir və soraq-biblioqrafiya aparatı yaradır. Bu göstərilən əməliyyatlar yüksəksəviyyəli kitabxana ziyalıları tərəfindən həm ənənəvi, həm də distant rejimdə həyata keçirilir. Distansion rejimdə kitabxanaçı rəsmən iştirak etməsə də, həmin istifadəyə verilən serviz kitabxananın yüksəksəviyyəli əməkdaşları tərəfindən yaradılır və kitabxananın fondu əsasında tətbiq edilir. Deməli, kitabxanadakı bütün texnoloji əməliyyatları kitabxanaçıların əməyi sayəsində həyata keçirmək mümkün olur. Ta qədim zamanlardan başlayaraq kitabxana işçisi oxuculara müxtəlif aspektlərdə xidmət göstərdiyi kimi müasir rəqəmsal texnologiyaların tətbiqində də kitabxana işçilərinin əməyi yüksək qiymətləndirilməlidir.

Universitet kitabxanalarında oxuculara informasiya xidməti kütləvi veb saytlarında olan məlumat bazalarından əlavə, konkret universitet kitabxanasının fondunun nə dərəcədə elektronlaşmasından çox asılıdır, xüsusilə, tələbələr üçün bu çox vacibdir. Tələbələrin ən çox tələb etdiyi dərslik və dərs vəsaitləridir. SSRİ dövründən fərqli olaraq indi kitabxanaya hər dərslikdən 400-500 nüsxə deyil, ən çox 100 nüsxə alınır. Əgər konkret bir dərslikdən bir neçə fakültə istifadə edirsə, onda vəziyyət ürəkaçan olmur. Ona görə dərslik və dərs vəsaitlərinin tammətnli elektron variantını yaratmaq və onları kitabxananın saytında yerləşdirmək ali məktəb kitabxanaları üçün çox vacibdir. Bu iş də kitabxana kadrlarının informasiya texnologiyalarını necə bilmək bacarığından asılıdır. Bütün bu işləri lazımi qaydada görmək üçün müasir milli tələblərə cavab verən ixtisaslı işçilər tələb olunur. Bu zaman müxtəlif vəzifələrdə çalışan kitabxana kadrlarının ixtisası, yeni texnologiyalarla işləmək bacarığı, intellektual səviyyəsi, elmi dünyagörüşü nəzərə alınmalıdır.

Hazırda kitabxanada çalışanların xeyli hissəsinin ixtisas təhsili yoxdur, uzun müddət kitabxanada çalışdıqları üçün təcrübə və vərdişlərə sahib olublar. Qeyri-ixtisaslı kadrların kitabxana sahəsində kurslara cəlb edilməsi günün tələbidir. Ali məktəb kitabxanalarında öz işinin ustası olan yüksək biliyə malik, müasir texnologiyalara yiyələnmiş, yüksək intellektual səviyyəli həqiqi mənada ziyalı gənclərə ehtiyac var.

**Zülfünaz HƏSƏNOVA,**
**BDU-nun Elmi Kitabxanasının elmi biblioqrafiya və informasiya şöbəsinin müdiri.**